


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 204 (24.341)

*3 noyabr 2023-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstana səfərə gəlib



Noyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında keçiriləcək 10-cu yubiley Zirvə görüşündə iştirak etmək üçün Qazaxıstan Respublikasına səfərə gəlib.

Astana şəhərinin Nursultan Nazarbayev Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Qazaxıstanın Baş naziri Alixan Smailov və digər rəsmi şəxslər qarşıladılar.

**AZƏRTAC**

## Biznes Mərkəzində sahibkarlarla görüş

*Noyabrın 2-də "Kapitalbank" Açıq Səhmdar Cəmiyyətinin nümayəndə heyəti muxtar respublikaya işgüzar səfər edib. Səfər çərçivəsində heyətin Naxçıvan Biznes Mərkəzində sahibkarlarla görüşü olub.*



Muxtar respublikada biznesin inkişafı üçün birgə fəaliyyət imkanlarının dəyərləndirilməsi məqsədilə keçirilən görüşdə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev çıxış edib. Qeyd olunub ki, muxtar respublikada həyata keçirilən məqsədyönlü və uğurlu islahatlar nəticəsində özəl bölmə iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilib. Özəl sektorun dövlət dəstəyindən daha geniş istifadə etməsi müasir texnologiyalara əsaslanan yeni istehsal və emal müəssisələrinin yaradılmasına, real sektora investisiya qoyuluşlarının sürətlənməsinə əlverişli şərait yaradıb. Nazir Naxçıvanda sahibkarlar və investorlar üçün yaradılan yeni imkanlardan, eləcə də əlçatan və effektiv maliyyələşmə mexanizmlərindən söhbət açıb.

"Kapitalbank" ASC-nin İdarə Heyətinin üzvü, korporativ satış inzibatçısı Fərid Hidayətzadə çıxış edərək sahibkarlığın inkişafında mühüm maliyyə mexanizmlərindən, kiçik və orta biznesin inkişafından bəhs edib, həmçinin sahibkarlar üçün tətbiq olunan güzəştlər haqqında geniş məlumat verib.

Digər çıxışlarda güzəştli biznes kreditlərinin verilməsi mexanizmlərindən və bu kreditlərin sahibkarlar üçün yaratdıqları imkanlardan danışılıb.

Sonda müzakirələr aparılıb, sahibkarları maraqlandıran suallar cavablandırılıb.

Görüşdən sonra Fərid Hidayətzadə "Şərq qapısı" qəzetinə müsahibə verib: – Ümid edirəm ki, sahibkarlarla görüşümüz onlar üçün faydalı oldu. Çalışdıq ki, onları sahibkarlar üçün nəzərdə tutulan xidmətlər haqqında məlumatlandıraq. Biz arzu edirik ki, sahibkarların tələbləri, çağırışlarına uyğun olaraq onlara dəstək göstərək. Bizim burada yeni bir mərkəzin yaradılması kimi imkanımız var. Nəzərdə tutulur ki, həmin mərkəzdə yeni infrastruktur yaradılsın və lazımi işçilərlə təmin olunsun. Bu mərkəzin fəaliyyəti məhz sahibkarlarla sıx şəkildə çalışmaqdan ibarət olacaq. Çünki sahibkarları daha yaxından tanımaq və onlara yaxından dəstək göstərmək lazımdır. Çalışacağıq ki, 2 gün müddətində sahibkarların fəaliyyət göstərdiyi ünvanlarda olaq və onların fəaliyyətləri ilə yaxından tanış olaq və təkliflərini dinləyərək dəstək göstərək.

**Gülcamal TAHİROVA**

## Naxçıvan Televiziyasına yeni sədr müavini təyinatı olub

Noyabrın 2-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini Anar İbrahimov İlhamə Tofiq qızı Novruzovanın "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədr müavini təyin edilməsi barədə sərəncam imzalayıb. Qeyd edək ki, ölkənin bir sıra aparıcı media qurumlarında işləyən İlhamə Novruzova bu təyinatdan əvvəl "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətində Xəbərlər departamentinin direktoru vəzifəsində çalışırdı.

Qeyd edək ki, "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin digər bir sədr müavini Xaliq Babayevdir.

## Şərur meteoroloji stansiyasında aqrometeoroloji avtomat stansiya quraşdırılıb



Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, aqrometeoroloji avtomat stansiya Şərur meteoroloji stansiyasında quraşdırılıb. Qeyd edək ki, avtomat stansiya 3 gün əvvəlin tam dəqiq proqnozunu verir.

Məlumatlarda, əsasən, atmosfer təzyiqi, küləyin sürəti və istiqaməti, havanın temperaturu və rütubəti, yağıntı miqdarı və intensivliyi, günəş radiasiyasının intensivliyi, buxarlanma və ultrabənövşəyi şüalanma dozası öz əksini tapır.

**Xəbərlər şöbəsi**

## Naxçıvanda Ünvan Reyestri İnformasiya Sistemi formalaşdırılır

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın 2023-2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planı"nda muxtar respublikada reallaşdırılması nəzərdə tutulan təfsilatlı tədbirlərdən biri də 2023-2024-cü illər ərzində Ünvan Reyestri İnformasiya Sisteminin formalaşdırılmasıdır. 15 sentyabr 2023-cü ildə təsdiq olunmuş müvafiq Tədbirlər Planının icrası məqsədilə Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən aid qurumlarla birgə Ünvan Reyestri İnformasiya Sisteminin formalaşdırılması üzrə işlərə başlanılıb.

Ünvan Reyestri İnformasiya Sisteminin formalaşdırılması üçün, ilk növbədə, Xidmət tərəfindən Naxçıvan Muxtar Respublikasının inzibati ərazi vahidlərinin sərhədləri aidiyyəti üzrə göndərilib. Daha sonra Ünvan Reyestri İnformasiya Sisteminə yerləşdirilməsi məqsədilə muxtar respublikanın poçt məntəqələrinin sərhədləri Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi ilə birlikdə müəyyənləşdiriləcək hazırlanıb.

Qeyd edək ki, sistemin formalaşdırılması üçün Naxçıvan şəhərinin, Əliabad qəsəbəsinin və şəhərin 5 kəndinin ünvan xəritəsi, həmçinin yeni yaranacaq nəqliyyat infrastrukturu obyektlərinin başlanğıc və son nöqtələri müəyyənləşdirilərək ünvan xəritələrinin layihələri hazırlanıb və baxılması üçün Naxçıvan Şəhər İcra Hakimiyyətinə göndərilib.

Diqqətə çatdıraq ki, muxtar respublikada Ünvan Reyestri İnformasiya Sisteminin formalaşdırılması məqsədilə qarşıdakı dövr ərzində də işlər davam etdiriləcək.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

## Qərbi Azərbaycanla bağlı xüsusi fənlər tədris olunacaq

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Qərbi Azərbaycana qayıdışla bağlı səsləndirdiyi fikirlərdə bu torpaqlardan deportasiyaya, soyqırımına məruz qalmış Azərbaycan əhalisinin taleyi ilə bağlı son 200 illik tarix üzrə tədqiqatların aparılması və Qərbi Azərbaycana qayıdış konsepsiyasının hazırlanması göstərişini verib.

Naxçıvan Dövlət Universitetində də bu məqsədlə əzəli ata-baba yurdumuz olan Qərbi Azərbaycanın siyasi tarixini, etnoqrafiyasını, milli adət-ənənələrini və mədəniyyətini gənc nəslə ətraflı öyrətmək məqsədilə universitet Elmi Şurasının qərarı ilə bir sıra fənlər təsdiq olunub. Belə ki, növbəti tədris ilindən etibarən Tarix müəllimliyi və Tarix ixtisaslarında Qərbi Azərbaycanın siyasi və etno-mədəni tarixi, Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisasında Qərbi Azərbaycanın toponimikası, Muzey, arxiv işi və abidələrin qorunması ixtisasında isə Qərbi Azərbaycanın maddi mədəniyyət abidələri adlı fənlər tədris olunacaq.

## İstismarda olan avtomobil texnikalarına baxış-müsabiqəsi keçirilib



Əlahiddə Ümumqoşun Ordunun birləşmə və hissələri arasında təşkil olunan baxış-müsabiqəsində hər bir sürücünün idarə etdiyi avtomobilin quruluşu, işləmə prinsipi və texniki istismarı qaydaları barədə bilik və bacarıqları yoxlanılıb və avtomobil texnikalarının saz vəziyyətdə saxlanmasına xüsusi diqqət yetirilib.

Müsabiqədə müxtəlif markalı minik avtomobilləri, mikroavtobus və avtobuslara gündəlik texniki xidmətin göstərilməsi ardıcıllığı yoxlanılıb. Ən yaxşı nəticəni göstərən hərbi hissələr baxış-müsabiqəsinin sonunda mükafatlandırılıb.

Qeyd edək ki, texnikada yaranan nasazlığın aradan qaldırılması, ona texniki qulluğun lazımi qaydada göstərilməsi yüksək təcrübə və praktiki bilik tələb edir.

Ordumuzun birləşmə və hissələri arasında keçirilən baxış-müsabiqələri şəxsi heyətin bu sahədə bilik və bacarıqlarının təkmilləşdirilməsinə şərait yaradır.

**Xəbərlər şöbəsi**

## IBM institutunun yaradılması istiqamətində təlimlər təşkil edilib



Naxçıvan Dövlət Universitetinin 20 əməkdaşının iştirak etdiyi təlim dizayn həlləri, süni zəka, proqram mühəndisliyi mövzularında keçirilib. IBM-in universitetlər üzrə əlaqələndirici şəxsi üzrə Hayri Sayının keçdiyi təlimlər bir həftə davam edəcək. Qeyd edək ki, IBM dünya miqyasında informasiya texnologiyaları və xidmətlər sahəsində liderdir. Bu əməkdaşlıqların məqsədi, texnologiya sahəsində peşəkar kadrlar yetişdirmək və müstəqil tədqiqat və inkişafı dəstəkləməkdir.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## "Heydər Əliyev İli"nə növbəti töhfə




AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutu tərəfindən hazırlanan "Taleyi və sənəti" seriyasının növbəti kitabı işıq üzü görüb. Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş kitab "Heydər Əliyev: həyatı və siyasi fəaliyyəti" adlanır.

Kitabın elmi redaktoru və ön sözün müəllifi akademik İsmayıl Hacıyev, tərtibçiləri AMEA-nın müxbir üzvü, professor Əbülfəz Quliyev və filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımovdur. Kitab filologiya üzrə fəlsəfə doktoru, dosent Elxan Məmmədovun rəyi ilə "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində çap olunub.

Ümummilli Liderin: ***"Canım, varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır... Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır"*** fikri ilə başlayan nəşrin ilk səhifəsində ölkə başçısı cənab İlham Əliyevin "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" 2022-ci il 29 sentyabr tarixli Sərəncamı verilib.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin kitaba yazdığı "Heydər Əliyev: bəşəri müdrikliyi özündə əks etdirən tarixi şəxsiyyət" başlıqlı ön sözdə Heydər Əliyev şəxsiyyətinin üstün keyfiyyətlərinə və Onun uzaqgörən siyasəti sayəsində əldə olunan inkişafa nəzər salınır, AMEA Naxçıvan Bölməsinin 21 illik fəaliyyəti dövründə Ulu Öndərin siyasi irsinin tədqiqi ilə bağlı çapdan çıxmış kitab, monoqrafiya və məqalələri, keçirilən elmi konfransları bölmə əməkdaşlarının Heydər Əliyev şəxsiyyətinə hörmət və ehtiramının göstəricisi kimi qiymətləndirilir.

Kitabın aparıcı mövzusu Heydər Əliyev siyasi kursunun ölkəyə qazandırdığı nailiyyətlərdir. Burada 15 müəllifin Ulu Öndər Heydər Əliyevin çoxcəhətli fəaliyyətindən, Onun Azərbaycan xalqı qarşısındakı əvəzsiz xidmətlərindən bəhs edən məqalələri toplanıb.

Topluda yer alan "Azərbaycan elminin böyük hamisi", "Ulu Öndər Heydər Əliyev: bütöv Azərbaycanın lideri", "Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin memarı və qurucusudur", "Ümummilli Lider Heydər Əliyevin Azərbaycançılıq məfkurəsi: milli ideologiya, ana dili və ədəbiyyat siyasəti" və digər məqalələrdə müstəqil Azərbaycanın keçdiyi inkişaf yolu, qazanılan uğurlar, ölkədə aparılan quruculuq və yenilənmə işləri əksini tapıb.

Qeyd edək ki, İncəsənət, Dil və Ədəbiyyat İnstitutu tərəfindən hazırlanan "Taleyi və sənəti" seriyası üzrə kitablar 2007-ci ildən başlayaraq nəşr edilir. "Heydər Əliyev: həyatı və siyasi fəaliyyəti" bu seriyanın sayca 17-ci kitabıdır.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

# VƏTƏN müharibəsinin tarixi ZƏFƏRİ

## XXI əsrin ən böyük Sərkərdəsindən Liderlik nümunəsi və düzgün döyüş strategiyası

*Qədim tarixin məşəqqətli və mürəkkəb zaman kəsiyindən, o cümlədən taleyüklü sınaqlarından üzüağ çıxan Azərbaycan xalqı 44 günlük müharibə ilə yazılan zəfər salnaməsinin növbəti ildönümünü böyük qürur və iftixar hissi ilə qeyd etməkdədir. Şübhəsiz ki, xalqa ərməğan olunan bu sevinc 30 illik yurd həsrətini, tarixi ədalətin bərpasını, eyni zamanda üçrəngli bayrağımızın bütöv Azərbaycanda dalğalanması amalını ehtiva edir. Müasir hərb tariximizə qızıl hərflərlə yazılan, xalqın hər bir təmsilçisinin köksünü dolduran, eləcə də bizi "dəmir yumruq" ətrafında sıx birləşdirən bu şanlı Qələbə bir sıra yönləri ilə bu gün diqqəti xüsusilə cəlb etməkdədir.*



***Daha az itki ilə daha böyük uğur***

Milli və dövlətçilik maraqlarımız rəhbər tutulmaqla nümayiş etdirilən siyasi-diplomatik iradə, qətiyyətli mövqe, eləcə də Qarabağla bağlı müəyyənləşdirilən düzgün strategiya və yol xəritəsi şanlı Aprel Zəfərini, tarixi Günnüt Qələbəsini yenidən təkrarlamağa hər an hazır olduğumuzun, işğalla, işğalçı ilə heç bir vəchlə barışmayacağımızın əyani təzahürü idi. 2020-ci il sentyabrın 27-dən başlayaraq Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli Ordumuzun düşmənin davamlı təxribatlarına cavab olaraq əks-hücum əməliyyatlarına başlaması, qısa zaman ərzində tarixi ədaləti bərpa etməsi və doğma torpaqlarımızı işğalçılardan xilas etməyə müvəffəq olması sadalanan faktları bir daha təsdiq etdi. Beynəlxalq hərbi ekspertlər etiraf edirlər ki, Azərbaycan Ordusunun mahiyyətcə "daha az itki ilə daha böyük uğur" strategiyası əsasında apardığı müharibə dünya hərb tarixində hazırda çox ciddi təhlil olunur.

İkinci Qarabağ savaşı ərəfəsində düzgün taktika və düşünülmüş döyüş strategiyasının ən bariz nümunələrindən biri də, şübhəsiz, "Qafqazın incisi", "Qarabağın döyünən ürəyi" hesab olunan, hər bir azərbaycanlının qürur yeri sayılan tarixi şəhərimiz Şuşanın erməni vandallarının işğalından azad olunmasıdır. Qədim və bənzərsiz mədəniyyət nümunələri ilə zəngin olan bu tarixi şəhərin dağlıq relyefdə yerləşməsinə baxmayaraq, xüsusi həssaslıq və dəqiq döyüş planına uyğun, Azərbaycan əsgərinin misligörünməmiş qəhrəmanlığı sayəsində azad edilməsi isə hələ də dünyanın aparıcı hərbi ekspertlərini heyrətləndirir. Bu baxımdan Şuşa qələbəsi Azərbaycanın döyüş brendinə çevrildi.

Ermənistanın keçmiş prezidentinin "Hələ də başa düşə bilmirik ki, Azərbaycan Ordusu Şuşanı topsuz-tüfəngsiz necə ələ keçirdi? Cəbrayıldan piyada daxil olub Hadrutdan çıxdılar. NATO generallarının isə "Şuşa əməliyyatı hərb tarixində tamamilə yeni bir dönəmdir" fikirləri bu faktların əyani təzahürüdür.

2020-ci ildə Rusiyanın məşhur "Vedomosti" nəşrinin altı nominasiya üzrə illik xüsusi layihəsinin nəticələrinə əsasən Azərbaycan Prezidenti cənab İlham Əliyevin nəşrin oxucuları arasındakı səsvermədə "İlin siyasətçisi" seçilməsi də, bu mənada, təbiidir.

***Vətən keşiyində sərvaxt dayanan qürur mənbəyimiz müzəffər Azərbaycan Ordusu***

İlk növbədə, qeyd edilməlidir ki, Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra digər sahələrlə yanaşı, ordu quruculuğunda da ilkin əsaslı islahatlar aparılmış, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilmiş, həmçinin maddi-texniki bazanın təkmilləşdirilməsi dövlət siyasətinin prioritetlərindən birinə çevrilmişdir.

***Müstəqil Azərbaycanda ordu quruculuğu prosesinin sürətli inkişafı və davamlı olaraq təkmilləşdirilməsi isə ölkə Prezidenti cənab İlham Əliyevin hakimiyyəti dövründə tamamilə yeni mərhələyə qədəm qoyub. Ordumuzun döyüş hazırlığı və psixoloji səviyyəsinin daha da yüksəldilməsi, şəxsi heyətin müasir silah və texnikadan məharətlə istifadə bacarığının artırılaraq maddi-texniki bazanın inkişaf etdirilməsi xüsusilə diqqətdə saxlanılmış, qabaqcıl üsullarla təlim və tədris sisteminin daim təkmilləşdirilməsi, habelə şəxsi heyətin müxtəlif ölkələrdə döyüş şəraitinə uyğun təlimlərə cəlb edilməsi nəticəsində böyük uğurlara nail olunmuşdur.***

Nüfuzlu "Global Fire Power" mərkəzinin 2021-ci ildə 55 göstərici əsasında hazırladığı hesabatda Azərbaycan Ordusunun Cənubi Qafqazda birinci, dünyada isə ilk əlli ordu sırasında yer alması, bu mənada, təsadüfi xarakter daşımır. Dövlət başçısı cənab İlham Əliyevin ***"Azərbaycan Ordusu dünya miqyasında 50 ən güclü ordu sırasındadır və beynəlxalq reytinqlər də, həyat da bunu göstərir, bizim hərbi uğurlarımız da buna dəlalət edir"*** fikri də bu faktı bir daha təsdiq edir.

***Təlimdə tökülən tər döyüş meydanında zəfər gətirər***

Qürurla deyə bilərik ki, Vətən savaşında ordumuzun üzərinə düşən missiyanın öhdəsindən layiqincə gəlməsinin mühüm aspektlərindən biri də şəxsi heyətin döyüş və mənəvi-psixoloji cəhətdən yüksək səviyyədə hazırlığı, o cümlədən dünyanın bir sıra qabaqcıl ölkələri ilə birgə genişmiqyaslı əməliyyat-taktiki təlimlərdə topladığı təcrübədir. Məşhur rus sərkərdəsi Aleksandr Suvorovun təbirincə desək: "Təlim əsgərin akademiyasıdır".

Bu baxımdan da ötən dövrlər ərzində hərb sahəsində ixtisaslaşmış qabaqcıl ölkələrlə birgə "təlimdə tər, meydanda zəfər!" prinsipinə uyğun olaraq müxtəlif miqyaslı təlimlər uğurla reallaşdırılıb. Xüsusilə qeyd olunmalıdır ki, düşməni vahiməyə salan "Sarsılmaz qardaşlıq – 2019", 2020-ci ildə "Azərbaycan-Türkiyə", "Sarsılmaz qardaşlıq – 2021", "Üç Qardaş – 2021", 2022-ci ildə keçirilən "Qardaş yumruğu" kimi çoxsaylı şəxsi heyətin cəlb edildiyi təlimlərdə ən müasir hərbi texnikanın döyüş şəraitində effektiv tətbiqi, qanunsuz silahlı birləşmələrin zərərsizləşdirilməsi və bu kimi digər tapşırıqlar müvəffəqiyyətlə icra edilib.

Bu da ordunun döyüş hazırlığının qorunub saxlanılması, çevikliyinin təmin edilməsi, peşəkarlığının artırılması baxımından olduqca önəmlidir.

Şanlı Qələbəmizdən sonra da cənab Ali Baş Komandanın rəhbərliyi altında ordu quruculuğu prosesi davamlı xarakter alıb. Bu, Vətən müharibəsindən sonra bir neçə dəfə hərbi təxribata cəhd edən Ermənistana verdiyimiz tutarlı cavablarda da özünü aydın ifadə edib.

***Cəbhədə uğur qazanan dövlətin informasiya savaşında da qalib gəlməsi labüddür***

Ötən əsrin ikinci yarısından başlayaraq informasiya müharibəsi dövlətlər arasında siyasi və hərbi müstəvidə formaca yeni mərhələyə qədəm qoyub. Müharibə və münaqişələrdə özünü bir qüvvə kimi büruzə verən informasiya, əslində, hədəfi dəqiq nişan alan güclü silahdır.



Sirr deyil ki, bir sıra yönləri ilə diqqətçəkən informasiya savaşı cəbhə xəttində aparılan hərbi əməliyyatlardan heç də geridə qalmır. Yalana həqiqət donu geyindirməyə çalışan Ermənistan bu müddət ərzində böyük məkrlə dünya ictimaiyyətini aldatmağa cəhd göstərsə də, Azərbaycan dövləti 44 günlük Vətən savaşını nəinki döyüş meydanında, eyni zamanda informasiya cəbhəsində apararaq işğalçı ölkənin qərəzli informasiya mühiti yaratmaq xülyasını puça uğratdı.

***Müzəffər Ali Baş Komandan bu dövr ərzində Azərbaycanın haqlı mövqeyinin sistemli şəkildə daha geniş auditoriyaya çatdırılması, düzgün və obyektiv işıqlandırılması məqsədilə 30-a yaxın xarici kütləvi informasiya vasitələrinə müsahibə verib. Ən mühüm nüanslardan biri isə odur ki, dövlət başçısının müsahibələri həm də erməni maraqlarına xidmət edən kütləvi informasiya vasitələrinə tutarlı cavab idi.***

Vətən müharibəsi ərəfəsində ölkə mediasının da üzərinə böyük məsuliyyət yükü düşüb. Qələmi ilə xalqına xidmət edən jurnalistlərimiz müasir texnoloji vasitələrdən istifadə etməklə ictimaiyyətə mütəmadi olaraq operativ və dolğun məlumatlar çatdırmış, cəmiyyətin informasiya tələbatını tam ödəmiş, eləcə də informasiya savaşının yenilməz əsgərinə çevrilmişdilər.

***Böyük Qələbənin sirri: Xalq-Lider-Ordu birliyi***

Əminliklə demək olar ki, Şanlı Zəfərimizin əsas düsturlarından biri, bəlkə də, birincisi xalq-lider-ordu vəhdəti, xalqın öz liderinə yüksək etimadı, həmçinin inam yeri olan orduya isə mənəvi dəstəyi idi. Yaşından, cinsindən asılı olmayaraq, "dəmir yumruq" kimi həmrəylik nümayiş etdirən Azərbaycan xalqı bu həssas dönəmdə dövlətinin, ordusunun yanında olmaqla vətəndaşlıq missiyasını layiqincə yerinə yetirdi. Eyni zamanda 44 günlük savaş ərəfəsində ordumuzun heç nəyə ehtiyacı olmadığı halda aylıq təqaüdünü könüllü olaraq Silahlı Qüvvələrin yardım fonduna ödəyənlər də oldu, ordu sıralarına qoşulanlar da, məişət əşyalarını təminat üçün göndərənlər də. Bu addım, bəlkə də, tarixdə nümunəsi çox az görülmüş dövlət-xalq-ordu birliyinin ən gözəl təcəssümü idi.

Qədim və şanlı tariximizə "Dəmir yumruq" əməliyyatı adı ilə həkk olunan Vətən müharibəsi regionda yeni reallıqlar yaratdı. Bu gün beynəlxalq aləmdə nüfuz sahibi olan Azərbaycan Qarabağ münaqişəsini həll etməklə tarixə qovuşdurub.

Azərbaycanın sülh çağırışlarına adekvat reaksiya verməyən, eyni zamanda davamlı hərbi təxribatlar törətməklə xalqın səbrini sınağa çəkən Ermənistan və qanunsuz silahlı birləşmələrinə qarşı antiterror əməliyyatı başlanıldı. Müzəffər Ordumuzun Qarabağda 24 saat ərzində keçirdiyi antiterror tədbirləri nəticəsində respublikamızın suverenliyi tam təmin olundu, o cümlədən qanunsuz rejim dövlətimizin tələblərini qəbul edərək tərksilah olunmağa məcbur edildi.

Ölkə Prezidenti cənab İlham Əliyev mövcud prosesləri təhlil edərək bundan sonra inkişaf və quruculuğa istiqamət götürməyin əhəmiyyətini ön plana çəkərək demişdir:

***"İndi isə əminəm ki, bölgəmizdə yeni vəziyyətin yaranması labüddür. Çünki kriminal xunta rejimi təslim olandan sonra bu gərginlik mənbəyi, bu zəhər yuvası artıq tarixdə qalır və Qarabağda yaşayan erməni əhalisi də, nəhayət, rahat nəfəs ala bilər... Bizə xor baxanlar, torpağımıza göz dikənlər, uğurumuzu həzm edə bilməyənlər heç vaxt, heç vaxt unutmasınlar ki, "dəmir yumruq" yerindədir və hər zaman yerində olacaq! Heç kim bizimlə diktat və ultimatum dilində danışa bilməz! Bunu heç kim unutmasın! Onu da unutmasın ki, Qarabağ Azərbaycandır!"***

*Bu gün erməni tapdağından azad edilmiş bütün torpaqlara həyat qayıdır, ocaqlar yanır, körpə nidaları eşidilir. 30 illik işğalın əzab-əziyyətindən qurtulan torpaqlar doğmalarının hənirtisi ilə cana gəlir, gələcək nəsillərinə qucaq açır. Bax budur Vətən, torpaq təəssübkeşliyi, budur, dünya boyda Azərbaycan sevgisi. Böyük Qələbəni bizə yaşadan qəhrəman oğullarımızla qürur duyur, şəhidlərimizə Allahdan rəhmət diləyirik.*

**Arif BAYRAMOV**

# Gənclərə hərbi-vətənpərvərlik tərbiyəsinin aşılanması hər zaman aktualdır

*Bəşəriyyət tarixində hər bir xalq özünəməxsus şəkildə ölkəsinin sosial-iqtisadi və siyasi inkişaf şəraitindən asılı olaraq yetişməkdə olan gənc nəslin hərbi biliklərə yiyələnməsinə xüsusi əhəmiyyət vermişdir. Hər şeydən əvvəl, bu cür tərbiyə üsulunun tarixi çox qədim olmaqla yanaşı, həm də xarici işğalçılara qarşı milli azadlıq müharibələrində təşəkkül tapmışdır.*



Hərbi-vətənpərvərlik tərbiyəsi Vətənə məhəbbət, öz xalqına hörmət, Vətənin düşmənlərinə nifrət, doğma yurdun çiçəklənməsi uğrunda fəal mübarizə bütün ictimai formasiyalarda dövrün zəka sahiblərinin həmişə diqqət mərkəzində olmuşdur. Hərbi-vətənpərvərlik tərbiyəsi hər bir ölkə vətəndaşının Vətəninin müdafiəsinə şəxsi hazırlığı ilə müəyyən edilir. Bunun üçün həmişə hərbi işə, düşmənə qarşı silahlı mübarizəyə yiyələnmək əsas vəzifə hesab olunur.

Hərbi-vətənpərvərlik hissi min illər möhkəmləndirilmiş ülvi hissdir. Bu ülvi hiss insanın öz doğma Vətəninə hədsiz məhəbbət bəsləməsində, onun müvəffəqiyyətlərini gördükdə ürəkdən sevinməsində, düşmənlərinə dərin nifrət bəsləməsində, hər qarış torpağın göz bəbəyi kimi qorunmasında, döyüş bacarığına və vərdişlərinə yiyələnməsində ifadə olunur. Hərbi-vətənpərvərlik hissi doğma yerlərə və adamlara bağlılıqdan, onları xarici və daxili düşmənlərdən qorumaqdan başlayaraq bütün qüvvə və qabiliyyətini Vətənin, xalqın mənafeyi uğrunda mübarizəyə həsr etməyə qədər inkişaf edib yüksəlir.

Ümummilli Liderimiz Heydər Əliyevin söylədiyi kimi ***“...bizim, sizin, hamımızın vəzifəsi müstəqil Azərbaycanın sağlam gəncliyini tərbiyə etmək, bilikli etmək, müasir dünyanın əldə etdiyi nailiyyətlər səviyyəsinə qaldırmaq, Azərbaycanda müstəqil, demokratik, hüquqi, sivilizasiyalı dövlət quruculuğu işinə cəlb etmək…”*** Yaşadığımız dövr gənc nəsli kiçik yaşlarından hərbi ruhda böyütməyi tələb edir. Gənc nəsli psixoloji və mənəvi baxımdan hərbi həyata hazırlamaq vacibdir. Gənc nəslin hərbi-vətənpərvərlik tərbiyəsi ilə bərabər, onların fiziki hazırlığının səmərəliliyi nəzarətdə olmağı tələb edir.

Gənclik hər bir millətin inkişafının təməl daşıdır. Məhz bu səbəbdən bir millətin mövcudluğu üçün sağlam gəncliyin olması vacib şərtdir. Çünki ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı, intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən asılıdır. Bu baxımdan ölkəmizdə gənclərlə iş sahəsində görülən tədbirlər Azərbaycan gəncliyinin daha da inkişaf etməsinə təkan verir, onların cəmiyyətdə təsdiq olunmaları üçün şərait yaradır.

Vətənpərvərlik təkcə Vətəni sevmək deyil. Vətənpərvərlik həm də Vətən naminə çalışmaq, Vətəni qorumağa hər an hazır olmaq, onun yolunda qəhrəmanlıqlar, fədakarlıqlar göstərmək, Vətənin, xalqın hər bir uğuruna sevinməkdir. Bu hiss insanda anadangəlmə olsa da, bütün digər hisslər kimi, tərbiyəyə möhtacdır və tərbiyə yolu ilə daha da möhkəmlənir və inkişaf edir.

Məktəbli uşaq və yeniyetmələrin bir vətəndaş kimi böyüməsində ailənin, cəmiyyətin, ümumilikdə, mühitin rolu böyükdür. Hərbi-vətənpərvərlik tərbiyəsini şagirdlərə, sadəcə, quru sözlərlə, nəsihətlərlə məhdudlaşdırmaq olmaz. Çünki Vətən sevgisi gənc vətəndaşlarımızın məqsədyönlü davranışının və fəaliyyətinin motivi və ideyasıdır. Bu baxımdan orta məktəblərdə tədris olunan gənclərin çağırışaqədərki hazırlığı fənninin böyük əhəmiyyəti vardır. Bu fənnin tədrisinin əsas məqsədi, birinci növbədə, gəncləri ölkənin müdafiəsinə psixoloji cəhətdən hazırlamaqdır. Bu isə gənclərə vətənpərvərlik hisslərinin aşılanmasında mühüm rol oynayır. Orduya çağırılan gənclərin ali məktəbdə oxuduğu dövrdə müəyyən hərbi biliklərə yiyələnməsi sonrakı dövrdə onların peşəkar hərbçi kimi yetişməsində də vacib rol oynayır.





Danılmaz bir faktdır ki, insanda vətənpərvərlik hissi qəhrəmanlığın əsasını qoyan amildir. Azərbaycan şanlı tarixi və əfsanəvi qəhrəmanları ilə həmişə fəxr edir. Azərbaycan xalqı qəhrəman xalqdır, bu xalq öz Vətənini göz bəbəyi kimi qorumağa hazır olan mətin gənclər yetişdirib.

Yuxarıda qeyd etdiyimiz kimi, gənclərin çağırışaqədərki hazırlıq dərslərinin ehtiyatda olan zabitlər tərəfindən keçilməsi bu işdə əhəmiyyətli rol oynayır. Belə mütəxəssislər şagirdlərə hərbi-vətənpərvərlik hisslərini daha keyfiyyətli şəkildə aşılaya bilirlər.

Şagirdlərin hərbi-vətənpərvərlik hisslərinin artırılmasında hərbçilərlə canlı ünsiyyət də mühüm rol oynayır. Hərbi dərslər zamanı şagirdlərin hərbi hissələrə aparılması da yeniyetmələrin formalaşmasında, onların Vətənə bağlılığının artırılmasında və Vətənin, torpağın müdafiəsində durmaq kimi hisslərinin inkişaf etdirilməsində böyük əhəmiyyətə malikdir. Ali Baş Komandanın xüsusi diqqət və qayğısı ilə əhatə olunan məktəblərin qarşısında gənc nəslin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi sahəsində məsul və təxirəsalınmaz vəzifələr qoyması təsadüfi deyil.

Bu vəzifələrin yerinə yetirilməsi ilə son dövrlərdə şagirdlərin hərbi-vətənpərvərlik tərbiyəsi xeyli yüksəlib. Hərbi-vətənpərvərlik tərbiyəsinin faktlar və zəngin əyani vasitələr əsasında aparılması tərbiyə işinin bu mühüm sahəsi üzrə maraqlı forma və üsulları da meydana çıxarıb, məktəblərlə hərbi hissələr arasında əlaqələrin yaradılması daha da gücləndirilib. Bu sahədə məktəblərdə toplanılmış qabaqcıl təcrübə hərbi-vətənpərvərlik tərbiyəsini daha məzmunlu və məqsədəuyğun şəkildə aparmağa imkan verir.

Bu gün gənclərin çağırışaqədərki hazırlığı dərslərinə cəlb edilən hər bir şagird yaxşı bilir ki, ordumuz varlığımız deməkdir, bu sarsılmaz qüvvə, sözün əsl mənasında, xalqın gücüdür, gənclərin yüzlərlə igid və mərd nümayəndələrini öz sıralarında birləşdirən dəmir yumruqdur. Ona görə də xalqımız öz ordusu ilə fəxr edir, onu yüksək məhəbbət hissi ilə sevir. Vətən müharibəsində ordumuzun qazandığı Böyük Qələbədə başlıca səbəblərdən biri məhz onun sıralarında belə qəhrəman və vətənpərvər övladların olması idi. Bu gün qürur hissi duyuruq ki, azadlıq mücadiləsində naxçıvanlı gənclər də böyük qəhrəmanlıq göstərib. Onların yüzdən çoxu şəhidlik zirvəsinə ucaldı, bir qismi isə qazi ömrü yaşayır. Belə igidlərimizin keçdiyi şərəfli ömür və döyüş yolları bugünkü tələbələr üçün bir örnək, onlarda vətənpərvərlik hisslərinin gücləndirilməsində bir nümunədir.

**Cavanşir ZEYNALLI**
**Nazim HƏSƏNOV**
***Naxçıvan Dövlət Universitetinin müəllimləri***

# Fəlakətlərin, xəyanətlərin günahkarı – İblis...

*Abdulla Şaiqin Hüseyn Cavidlə bağlı xatirələrini oxuyuruq: “1918-ci ilin mart hadisəsindən sonra Cavid Hüseyn Sadiqlə bizə gəlmişdi. Cavidin bət-bənizi ağarmışdı. O, son dərəcə nəşəsiz və mütəəssir görünürdü. Əhval sordum. Hüseyn Sadiq Cavidin əsir düşdüyünü və ölümdən qurtulduğunu söylədi...”*

Mənbələrdə qeyd olunur ki, 1918-ci ilin mart hadisələri vaxtı Hüseyn Cavid Bakıdakı köhnə Nikolayevski küçəsindəki “Təbriz” otelində yaşayırmış. 1918-ci ilin mart hadisələrinin ikinci günü bir dəstə daşnak əsgəri otelin qapısını qırıb içəri girir və altmış nəfəri əsir götürür. Onlar yolda hər tinbaşı atəş açaraq əsirləri güllələyirlər. Altmış nəfərdən iki nəfər qalana qədər atəş açaraq onları öldürürlər. XX əsrin uzaqgörən romantiki Hüseyn Cavid Azərbaycan səhnəsinin şah əsərlərindən olan “İblis” faciəsini bu acı təsirlər altında yazıb. Əsəri oxuduqca insanların taleyində müharibənin yaratdığı vəhşiliklər haqqında düşüncələr, eyni zamanda xain, ikiüzlü, iblis xisləti ermənilərin əsrlərdən bəri xalqımızın başına açdığı müsibətlər göz önündə canlanır. Oxucu hadisələrin cərəyanı fonunda müharibənin dəhşətlərini, eləcə də ağrılarını iç dünyalarında daşıyan üç gəncin – Arifin, Vasifin və yaralı əsgərin Vətən, onun tarixi və taleyi haqqındakı düşüncələri ilə bir daha yaxından tanış olur. “İblis” faciəsinin Birinci Dünya müharibəsi illərində qələmə alınması, Hüseyn Cavid kimi bir şəxsiyyətin fəlsəfi və humanist düşüncələrinin aktual bir formada daha qabarıq şəkildə açılması, ədalətsiz müharibələrə, müharibə qızışdırıcılarına qarşı nifrət hisslərinin oyanması ideyanın daha dolğun təqdim olunması baxımından bu günümüzlə səsləşməsinin əsas mahiyyəti kimi səciyyəvidir. “İblis” faciəsi öz dövrünün dramatik tarixi gedişatını ifadə etmək ehtiyacından meydana gələn bir əsər kimi bu gün də diqqət mərkəzindədir. Faciənin Birinci dünya müharibəsinin xalqların ictimai, siyasi, mənəvi həyatında doğurduğu sarsıntıların ifadəsi kimi təqdim olunması bu fikri bir daha özlüyündə təsdiq edir. Məhz “İblis” faciəsi bu müdhiş gerçəkliyin insan həyatına gətirdiyi ağrı-acılar üzərində böyük ədib Hüseyn Cavidin gərgin düşüncələrindən yaranıb. Dramaturqun bu düşüncə gərginliyi, faciə boyu ideya axtarışlarının mürəkkəbliyi fonunda geniş bir formada təqdim edilir.

Pyesin məzmununa nəzər saldıqda onun qayəsinin daha dərin olduğunun fərqinə varırsan. İblis obrazı, iblislik və insan təbiətinin xeyirlə şərin daim mübarizə meydanı olması, müharibələr, onları doğuran səbəblər haqqında mühakimələrinə geniş imkanlar yaradır. Hüseyn Cavid “İblis” faciəsi ilə müharibə mövzusuna ötəri tarixi bir hadisə kimi yanaşmır. O bu kimi ictimai bəlanı doğuran faciələrə səbəb olan mənbələrə nüfuz etmək niyyətini özlüyündə cəmləşdirir. Bunun üçün bir tərəfdən müharibəyə faciəli hadisə kimi baxırsa, digər tərəfdən, I Dünya müharibəsində istər Türkiyənin düşdüyü acınacaqlı vəziyyət, istərsə də bəşəriyyətin keçirdiyi dərin sarsıntılar kimi təqdim olunan xeyirlə şərin mübarizəsi mövzusunu belə bir tarixi gerçəkliyin təzadları baxımından canlandırmağa yönləndirir. Hüseyn Cavidin düşüncəsinə görə, hər zaman İblis bu sarsıntılı tarixi mühitin mərkəzində dayanan, onu inkişaf etdirən və bütün təzadları özündə daşıyan bir surət kimi göstərilir. Faciə boyu müəllif çıxış yolunu yalnız insanın sağlam ideyasında, sağlam zəkasında, ağlında araşdırır. Əsərdə müharibəyə qarşı duran, bütün qüvvəsi ilə müharibəni inkar edən surət Arifdir. Arifin simasında saf bir sevginin tərənnümü olaraq bu sevgi üçün hər zaman onu qorumağa çalışan qüvvə kimi şər qüvvələrin, yəni iblislərin hədəfinə çevrilir. Hərb və insanlığın



fəlakəti, savaş və humanizmin gətirdiyi müsibətlərin problemlərinə Şərq fəlsəfi düşüncə tərzi əsasında yanaşaraq obrazın romantik faciə fonunda təqdim olunmasına nail ola bilib Cavid əfəndi.

Bu əsərlə müəllif bütöv insanların mənəvi mühitini, intellektual düşüncəsini dövrün məsələlərinə yönəldir ki, bu da özünün bəşəriliyi ilə bağlıdır. “İblis” əsəri, eyni zamanda insanın daxilindəki xeyir və şərin mübarizəsinə həsr olunub. Müəllif bu əsərdə İblis obrazının simasında insan konsepsiyasının qloballığını, əsərin genişliyini və aktuallığını açıb göstərib. Cavid əfəndinin bu əsərində insan dramatik bir varlıqdır, bu varlığın daxilində xeyir və şər, nəfs və ideal, müharibə və sülh, qılınc və qələm arasında mübarizə gedir. Ən əsas cəhət də odur ki, bu mübarizədə yüksələn, qələbə çalan da insandakı insanilikdir.

Pyesdə maddi zənginlik üçün ruhlarını şeytana satan insanların aqibəti də təsvir olunur. Ədib göstərir ki, həyatda maddiyyatı əsas stimul kimi görən insanlar, günahsız insanlara qarşı ədalətsiz, qəddar davrananlar, insanlığı öz qəddarlığı, cinayəti və xəyanəti ilə məhv edən kəslər daim fəlakətlərə uğrayıblar. Burada insanlığa sevgi, vicdan, mərhəmət, əxlaq aşılanır. Əsərdə xəyanət, cinayət, qəddarlıq, zülm pislənilir. Ədib insan təbiətinin hər iki üzünü onun şeytani təbiətini və mərhəmətini, ucalığını müqayisəli təqdim edir. Hüseyn Cavid yaradıcılığının bədii estetikasının bütün özəllikləri bu əsərdə aydın şəkildə görünür. İnsanlığa qarşı olan dəhşəti, fəlakəti, vəhşəti, zəlaləti bəşəriyyətin bəlası sayır. Əsərdə “Mələk” adlı mifik obraz bəşəriyyətdə olan bütün vəhşiliklərin, cinayətlərin, xəyanətlərin, fəlakətlərin günahkarı kimi İblisi görür. Onun insanoğlunu yolundan çıxarıb, fəlakətlərə düçar etdiyini söyləyir.

Mədəni vəhşəti, zülmü, cinayəti, fəlakəti, xainliyi pisləyən, bəşəriyyətə insanlıq duyğusu, vicdanlı olmağı məsləhət bilən Arif axırda özü İblisə qul olur. O, silah, qurşun, qızıl imtahanından keçə bilməyib, nəfsinin köləsinə çevrilir. Ədib İblisin bu sözləri ilə dində, məzhəbdə dəhşətin hakim olduğunu bildirir. Xəyal ilə həqiqətin, fəlakət ilə əmin-amanlığın, xeyir ilə şərin, elm ilə cəhalətin vəhdəti təqdim olunur bu əsərdə. İblisin sözlərinin əsiri olan Arif əsəbi və xırçın hərəkətləri ilə İblisə uyub, bir çox cinayətlərə bais olur. Ədib çılğın və qorxunc İblisin hər ölkədə, hər diyarda, hər evdə olduğu fikrini söyləyir. Hər kəsin İblisi dinlədiyini, lakin ona nifrət də etdiyini bildirir. İblis məğrur qəhqəhələr ilə hər kəsin ona aciz qul olduğunu, insanların pəncəsində əzilib, qıvrılıb, məhv olduqlarını söyləyir. İblis insanlara rəhbərlik edən, qan püskürən, atəş savuran kinli kralları, şahları, ulu xaqanları, qızıl və qadın düşkünü olanları, min hiylə quran tülkü siyasətçiləri, hər an məzhəb çıxaran, yol ayıran din xadimlərini, xalqı soyan əyanları, bütün fitnəkar şərləri, zülmü, xəyanəti yer üzünün həqiqi İblisi sayır. Hərb və insanlığın fəlakəti, savaşın müsibəti problemlərinə Şərq fəlsəfi düşüncə tərzi əsasında yanaşan dramaturq hərb aparan hansısa dövlətin siyasətini deyil, bütövlükdə, müharibənin faciələrini, iblisliyin insanlığı məhvə sürükləməsini psixoloji və fəlsəfi təzadlarla oxuculara çatdırıb. Faciənin əsas ideyasını, qayəsini əsərin sonunda İblisin dili ilə söylənilən bu misralar dərindən əks etdirir:

*“İblis nədir? – Cümlə xəyanətlərə bais…*
*Ya hər kəsə xain olan insan nədir? – İblis!..*

**Gülcamal TAHİROVA**

*Yol hərəkətində təhlükəsizliyin təmin edilməsi hazırda aktual məsələlərdən biridir. Əhali və avtomobil sayının ildən-ilə artması, şəhər həyat tərzinin geniş yayılması demoqrafik inkişafın göstəricisi sayılsa da, özü ilə bərabər bir çox problemlərin də yaşanmasına şərait yaradır. Burada əsas məsələlərdən biri də, demək olar ki, gündəlik rastlaşdığımız yol-nəqliyyat hadisələridir. Bəs hazırda muxtar respublikada bununla bağlı ümumi vəziyyət necədir? Suallarımızı Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisinin əməkdaşı, polis kapitanı Ayaz İsmayılov cavablandırır:*

# Əyləncə zövqümüzü həyati təhlükə və cərimələnmə məyusluğu ilə korlamayaq

## *Ayaz İsmayılov: “Valideynlər bilməlidirlər ki, yollarda skuter sürən uşaqları ciddi təhlükə gözləyir”*



***– Ayaz müəllim, ilk olaraq, sizdən muxtar respublikada mövcud olan avtomobillərin sayı və son dövrlərdə rast gəlinən yol-nəqliyyat hadisələrinin statistikası haqqında soruşmaq istərdim.***

– Dəvətiniz üçün minnətdaram. Qeyd edim ki, hazırda muxtar respublikada avtomobillərin mövcud sayı, təxminən, 50 minə yaxındır. Baş verən qəzalara gəldikdə isə deyə bilərəm ki, bu ilin ilk 9 ayı ərzində muxtar respublikada ölüm və xəsarətlə nəticələnən 56 yol-nəqliyyat hadisəsi qeydə alınıb. Nəticədə, 24 nəfər həyatını itirib, 61 nəfər xəsarət alıb. Piyadalarla bağlı 18 hadisə baş verib, bu hadisələrdə 3 nəfər dünyasını dəyişib, 17 nəfər isə müxtəlif dərəcələrdə bədən xəsarəti alıb. Baş verən qəzaların səbəblərinə gəldikdə, ən çox nəqliyyat vasitələrinin yanlış ötmə və manevr qaydalarını pozmasını qeyd etmək olar. Bunun ardınca piyadaların nizamlanmayan piyada keçidlərindən düzgün istifadə etməməsi və yaxud bu cür yollarda piyadaya yol verilməməsidir. Sonrakı səbəb avtomobillərin hərəkət sürəti və ara məsafəsidir. Bu, əsasən, şəhər daxilində daha çox rast gəlinən hərəkətlərdir. Digər səbəblərə gəldikdə isə burada mobil telefonlardan istifadəni və sairi göstərə bilərik.

***– Hazırda yol hərəkətinin təhlükəsizliyi ilə bağlı hansı tədbirlər görülür?***

– Yol hərəkətinin təhlükəsizliyi ilə bağlı tərəfimizdən bir sıra addımlar atılır. Bir müddət bundan əvvəl Naxçıvan şəhərində yolun nişanlanma xətləri yeniləndi. Nizamlanan və nizamlanmayan piyada keçidləri yenilənərək daha aydın fərq edilməsi təmin edildi. Hazırda da Avtomobil Yolları Dövlət Agentliyi ilə birgə yollarda monitorinqlər aparılır. Monitorinq nəticəsində siyahı hazırlanaraq nə qədər yol nişanına ehtiyac olduğu bəlli olacaq və bütün bu sahədəki çatışmazlıqlar həll ediləcək. Eyni zamanda təhlükəsizliyin təmin edilməsi məqsədilə kütləvi informasiya vasitələrində, əhali arasında, xüsusilə təhsil müəssisələrində maa-



rifləndirici tədbirlərimizi davam etdiririk.

***– Mənim əlavə iki sualım da olacaq. Velosiped və skuterlərlə bağlı. Nəzərə alaq ki, bizdə velosiped zolaqları yoxdur, amma vətəndaş da bundan istifadə edir. Bu sahədə tənzimləmələr necə aparılır?***

– Bəli, Naxçıvan şəhərində velosiped sürmək üçün zolaqlar yoxdur. Biz buna daha çox böyük şəhərlərdə rast gəlirik. Hazırda paytaxt Bakı şəhərində bununla bağlı pilot layihə həyata keçirilir. Nəzərə alaq ki, velosiped zolaqlarını da hər yerdə salmaq mümkün deyil, çünki burada küçənin genişliyi, piyada və nəqliyyat axınının həcmi və digər səbəblər var. Amma buna baxmayaraq, yol hərəkəti haqqında qanunda göstərilir ki, velosipedçi velosiped zolağı varsa həmin zolaqda, yoxdursa yolun hərəkət hissəsinin sağ kənar zolağında və zolağın da sağ kənar hissəsində avtomobillərə maneçilik törətmədən, əgər yol çiyni varsa, piyadalara maneçilik törətmədən sürə bilər. Ən əsası da velosipedçi də təhlükəsizlik qaydalarına, yol nişanlarının tələblərinə əməl etməlidir, başında dəbilqə olmalıdır. Eyni zamanda velosiped texniki cəhətdən saz olmalı, işıq cihazları ilə təmin edilməlidir və sair. Xüsusilə burada bir daha qeyd etmək istərdim ki, velosipedçi piyada zolaqlarından sürüb keçə bilməz, yalnız özü piyada, velosipedi isə əli ilə hərəkət etdirərək keçə bilər. Velosipedçinin tərifində də bildirilir ki, velosipedçi velosipeddən enən zaman, o, qanunla piyadaya bərabər nəzərdə tutulur.



***– Hərəkətli yollarda velosiped sürmək üçün yaş həddi varmı?***

– Vacib məsələyə toxundunuz, küçə və yollarda hərəkət edən velosipedçinin qanunla 14 yaşdan aşağı olması qadağandır. Amma, təəssüf ki, biz bir çox hallarda azyaşlı uşaqların da yol və küçələrdə velosipedlə hərəkət etməsinin şahidi oluruq. Burada valideynlərin üzərinə böyük məsuliyyət düşür. Azyaşlı uşaqlar velosipedi parklarda, onlar üçün ayrılmış meydançalarda sürə bilərlər.

***– Son zamanlar şəhərimizdə elektrikli skuterlərin sayının artması da müşahidə olunur və açıq etiraf etmək lazımdırsa, bununla bağlı sürücülər tərəfindən çoxlu şikayətlər eşidirik.***

– İlk olaraq bunu demək istərdim ki, biz hələ də velosiped və ya skuterlərə nəqliyyat vasitəsi kimi baxmırıq, onları daha çox əyləncə vasitəsi kimi qəbul edirik. Halbuki yolda hərəkət üçün konstruksiya imkanları olan və sürücü tərəfindən idarə olunan istənilən qurğu nəqliyyat vasitəsidir. Bu baxımdan velosiped də, skuter də, at arabası da nəqliyyat vasitəsi sayılır. Yol hərəkəti haqqında qanunda, doğrudur, biz skuter və elektrikli skuter sözünə rast gəlmirik, amma mopedlərin tərifində biz bunu görürük. Moped nədir? Yəni konstruktiv hərəkət sürəti 50 kilometr saatdan və mühərrikin işçi həcmi 50 kub santimetrdən çox olmayan iki və ya üçtəkərli nəqliyyat vasitəsi moped adlanır. Digər oxşar xüsusiyyətli nəqliyyat vasitələri də mopedlərə bərabər tutulur. Skuterlərə də bu prizmadan baxmaq lazımdır. Velosipeddən fərqli olaraq moped və elektrikli skuterləri idarə etmək üçün yaş həddi 16 qəbul olunub. Bu yaşdan aşağı yeniyetmələrin yol və küçələrdə moped və yaxud skuter sürmələri qadağandır. Onlar da velosipeddə olduğu kimi, yolun sağ kənar zolağı ilə hərəkət etməli, təhlükəsizlik dəbilqəsi geyinməli, işıq cihazları ilə təmin olunmalıdırlar. Doğrudur, bu gün elektrikli skuterlərin sayı artıb. Valideynlər də bilməli və bu məsələni nəzərdə saxlamalıdırlar ki, elektrikli skuterləri 16 yaşdan aşağı uşaqların idarə etməsi qadağandır. Eyni zamanda bu cür nəqliyyat vasitələrini idarə edənlər də bilməlidirlər ki, onlar qanunvericiliyin tələb etdiyi qaydada cərimələnə bilərlər. Yol hərəkəti qaydalarının əleyhinə olan inzibati xətaların 338.4-cü maddəsində məhz velosiped, moped (elektrikli skuterlər də bura daxildir) sürücülərinə görə cərimələr təyin olunub. Yeri gəlmişkən, bunu da qeyd edim ki, biz də yol polisi əməkdaşları olaraq daim kütləvi informasiya vasitələrində, orta ümumtəhsil məktəblərində olur, bu sahədə maarifləndirmə işləri aparırıq.

***– Suallarımızı cavablandırdığınız üçün sağ olun.***

– Siz də sağ olun.

✍ **Səbuhi HƏSƏNOV**

# Soyuducu anbarlar ərzaq təchizatında vacib amillərdəndir

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda sosial-iqtisadi inkişaf istiqamətində 11 prioritet özünə yer alıb.*

Məlumdur ki, kənd təsərrüfatı iqtisadiyyatın ən aparıcı sahələrindən biridir və muxtar respublikanın coğrafi iqlim şəraiti, məhsuldar və münbit torpağı hələ qədim zamanlardan burada adıçəkilən sahə insanların daimi məşğuliyyətinə çevrilib. Dövlət Proqramı isə torpaq mülkiyyətçilərinə, fiziki şəxslərə, sahibkarlara daha böyük uğurlar vəd edir. Unutmayaq ki, ərzaq təhlükəsizliyinin təmin olunmasında aqrar sahənin üzərinə mühüm vəzifələr düşür. Bunun üçün yeni texnologiyaların tətbiqinə əsaslanan layihələrin həyata keçirilməsi günün tələbidir. Bu mənada, muxtar respublikada soyuducu anbarlara olan tələbatı ödəmək üçün görülən işlər öz bəhrələrini verməkdədir. Bununla bağlı Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti ilə əlaqə saxladıq. Məlumat verildi ki, soyuducu anbarların yaradılması istehlakçıları qış dövründə müxtəlif ərzaq məhsulları ilə təmin etmək istiqamətində başlıca amillərdən biridir. Həmçinin bu anbarların hər biri yeni iş yerlərinin açılması deməkdir.




Onu da öyrəndik ki, sahibkarlığın inkişafına verilən dəstək, güzəştli kreditlər və şəxsi vəsaitlər hesabına bu gün muxtar respublikamızda soyuducu və digər təyinatlı ərzaq məhsullarının saxlanması üçün anbarların ümumi tutumu 22880 tona çatdırılıb. Hazırda Naxçıvanda dövlət maliyyə dəstəyi ilə yaradılmış, bilavasitə istehsalçıların fəaliyyətinin stimullaşdırılması məqsədilə tələbatdan artıq kənd təsərrüfatı məhsullarının tədarükünün həyata keçirilməsi üçün tutumu 15550 ton olan ixtisaslaşdırılmış soyuducu anbar və sahibkarlıq subyektlərinin öz istehsal məhsullarının saxlanması üzrə tutumu 7330 ton olan digər təyinatlı ərzaq məhsulları üçün anbarlar mövcuddur.

Biz də bununla bağlı “Şərq qapısı” olaraq bu günlərdə muxtar respublikanın rayonlarında fəaliyyət göstərən soyuducu anbarların fəaliyyətini izləmək qərarına gəldik. İlk olaraq Şərur rayonuna üz tutduq. Məlumat üçün bildirək ki, bu bölgədə 30-dək müxtəliftutumlu soyuducu anbar sahibkarların, torpaq mülkiyyətçilərinin və fiziki şəxslərin istifadəsindədir. Onlardan biri də rayonun Məmmədsabir kəndində fəaliyyət göstərən ***Yusif Quliyevə*** məxsus olan “Yusifoğlu” soyuducu anbarıdır. Anbar 2009-cu ildə fəaliyyətə başlayıb. Yusif Quliyevin sözlərinə görə, Sahibkarlığın İnkişafı Fondundan kredit götürərək 330 tonluq anbarı bir qədər genişləndirərək 540 ton tutuma çatdırıb. Bununla kifayətlənməyən sahibkar anbarın yerləşdiyi ərazidə 2 hektar bağ salıb, burada əkilmiş cəviz, fındıq, alma ağacları artıq məhsul verir. Həmin məhsullar, əsasən, həftənin şənbə və bazar günləri Naxçıvan şəhərində təşkil olunan kənd təsərrüfatı məhsullarının satış yarmarkalarına və mövsümi müxtəlif festivallara çıxarılır. Orqanik olan bu məhsulların, hətta Bakı şəhərində də alıcıları var. Yusif Quliyev anbarın yerləşdiyi ərazidə həm də 2100 kvadratmetr sahədə istilikxana inşa etdirib. Burada tərəvəz yetişdirilir. Şərurlular ilboyu bu tərəvəzlərdən istifadə edirlər. Həmin ərazidə 5 hektar sahədə kartof əkini həyata keçirilib, yüksək məhsuldarlığa nail olunub. Sahibkar Yusif Quliyevin daha bir layihəsi ərazidə 0,4 hektar sahədə ailəvi istirahət mərkəzinin inşasına başlanılmasıdır. Şərur kimi böyük bir rayonda belə istirahət mərkəzinin yaradılması ömrünü torpağa bağlamış insanların, gənclərin, ağsaqqalların asudə vaxtlarının səmərəli keçirilməsi məqsədi daşıdığından bu layihə bölgə sakinləri tərəfindən minnətdarlıqla qarşılanıb. Biz də arzulayırıq ki, sahibkarın bundan əvvəlki layihələri kimi bu layihəsi də ona uğurlar gətirsin. Bu məqamda həm istehsal sahələrinin, həm də soyuducu anbar bir neçə nəfərin məşğulluğuna şərait yaratması da xüsusi vurğulanmalıdır.

Gəldiyimiz qənaət belə oldu ki, şərait yaradılan hər bir işdə uğur qazanmaq çətin deyil. Elə adıçəkilən Dövlət Proqramının həyata keçirilməsinə dair Tədbirlər Planında özünə yer almış və görüləcək digər işlər bu qənaətimizi bir daha gücləndirməklə ona əminlik yaradır ki, qədim diyarımızın sakinləri ilboyu özümüzün istehsal etdiyimiz kənd təsərrüfatı məhsulları ilə təmin olunacaqlar.

✍ **Muxtar MƏMMƏDOV**

## Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi

### *elmi-tədqiqat müəssisələrində baş direktor və şöbə müdiri vəzifələrini tutmaq üçün müsabiqə elan edir*

**Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu**

Qədim və orta əsrlər tarixi şöbəsi
Şöbə müdiri – 1 ştat vahidi
Arxeoloji xidmət şöbəsi
Şöbə müdiri – 1 ştat vahidi

**İncəsənət, Dil və Ədəbiyyat İnstitutu**

Dilçilik şöbəsi
Şöbə müdiri – 1 ştat vahidi
Musiqi və teatr şöbəsi
Şöbə müdiri – 1 ştat vahidi
Onomastika şöbəsi
Şöbə müdiri – 1 ştat vahidi
Folklorşünaslıq şöbəsi
Şöbə müdiri – 1 ştat vahidi
Ədəbiyyatşünaslıq şöbəsi
Şöbə müdiri – 1 ştat vahidi

**Əlyazmalar Fondu**

Baş direktor – 1 ştat vahidi
Əlyazmaların kataloqlaşdırılması, tədqiqi və nəşri şöbəsi
Şöbə müdiri – 1 ştat vahidi

Müsabiqədə yerlərə uyğun olaraq AMEA-nın həqiqi və müxbir üzvləri, elmlər doktorları, fəlsəfə doktorları iştirak edə bilərlər.

Sənədlər müsabiqənin tələblərinə uyğun olaraq elan dərc edilən gündən etibarən bir ay müddətində aşağıdakı ünvana göndərilməlidir.

***Az 7000, Naxçıvan şəhəri,***
***Heydər Əliyev prospekti 76.***
***AMEA Naxçıvan Bölməsi***
***İnsan resursları və sənədlərlə iş şöbəsi***
***Telefon: 550-21-52; 544-09-64***

## *İtmişdir*

Kəngərli rayonunun Xok kəndində yaşamış Tağıyev Ağoş Əkbər oğluna məxsus JN-275A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

İbrahimov Şahin İbrahim oğlunun adına olan VÖEN itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Yunis Cabbarov küçəsi, mənzil 18-də yaşayan Abdullayeva Jalə Azər qızının adına verilmiş Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Culfa rayonunun Kırna kəndində Cəfərova Səkinə Sultan qızının adına olan 53 və 51 inventar nömrəli qeyri-yaşayış binasının texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Türkiyə vətəndaşı Yalım Azra Ahmet kızının adına olan pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 642